**26.01.2022: xəbər**

**Professor, Academician Hamlet Isakhanli answered the enquiry of the educational portal**

On January 24, 2022, the educational portal *azedu.az* addressed an enquiry “Our country has formed an education system based on international standards. But what experience of other countries can Azerbaijan adopt today?” to the experts on the occasion of the International Education Day.

The founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Professor, Academician Hamlet Isaxanli, responded to the enquiry and said:

“At present, Azerbaijan cannot master the education system of any country. Because there are many different teaching methods in the world. Each country's system is different. Among them, the education systems of America, China and Japan are very developed. Our country has created its own system of secondary education. It would not be right to take anything from anyone here. The Bologna system is applied in universities. This means that European terms, credit systems and different approaches are used in our country. The methods and terminology currently used from a technical point of view are close to the European system.

Each country creates its own basic educational base. In this case, it takes different concepts and terms from other countries. Europe currently uses the Bologna system. Azerbaijan joined the Bologna system in 2005. The experience of different European countries is used here."

https://azedu.az/az/news/52158-tehsil-sistemi-masinin-tekeri-kimidir-o-olmasa-olke-inkisaf-ede-bilmez-ekspert-deyerlendirmeleri

**Professor, akademik Hamlet İsaxanlı təhsil portalının sorğusunu cavablandırıb**

2022-ci il yanvarın 24-də azedu.az təhsil portalı Beynəlxalq Təhsil Günü münasibətilə "Ölkəmiz beynəlxalq standartları əsas götürərək, təhsil sistemi formalaşdırıb. Bəs, hazırkı dövrdə Azərbaycan digər dövlətlərin hansı təcrübəsini mənimsəyə bilər?" sorğusu ilə ekspertlərə müraciət edib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı sorğunu cavablandıraraq demişdir:

"Hazırda Azərbaycan heç bir ölkənin təhsil sistemini mənimsəyə bilməz. Çünki dünyada çox müxtəlif tədris metodları var. Hər ölkənin sistemi digərindən fərqlənir. Bunların sırasında Amerika, Çin və Yaponiyanın təhsil sistemləri çox inkişaf etmiş formadadır. Ölkəmiz orta təhsildə öz sitemini yaradıb. Burada kimdənsə nəyisə götürmək düzgün olmazdı. Ali məktəblərdə isə Boloniya sistemi tətbiq edilir. Bu o deməkdir ki, ölkəmizdə Avropanın termin, kredit sistemləri və müxtəlif yanaşmalarından istifadə olunur. Hazırda texniki baxımdan istifadə olunan metod və terminologiyalar Avropa sisteminə yaxındır.

Hər ölkə özünün əsas təhsil bazasını yaradır. Bu zaman o, müxtəlif anlayış və terminləri digər ölkələrdən götürür. Hazırda Avropa Boloniya sistemindən istifadə edir. Azərbaycan isə 2005-ci ildən Boloniya sisteminə qoşulub. Burada müxtəlif Avropa ölkələrinin təcrübəsindən istifadə edilir".

https://azedu.az/az/news/52158-tehsil-sistemi-masinin-tekeri-kimidir-o-olmasa-olke-inkisaf-ede-bilmez-ekspert-deyerlendirmeleri